# ÇANAQQALA ŞƏHİDLƏRİNİN XATİRƏSİ ANILIB

**Türkiyənin Gəncədəki Baş Konsulluğunda gerçəkləşən tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, millət vəkili Pərvin Kərimzadə, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, professor İbrahim Cəfərov və ictimaiyyət nümayəndələri iştirak ediblər. İlk öncə, Çanaqqala şəhidlərinin ruhu bir dəqiqəlik sükutla yad edilib, Türkiyə Cümhuriyyətinin dövlət rəmzi - "İstiqlal marşı" səsləndirilib. Daha sonra şəhidlərin ruhuna dualar oxunub.**



Anım mərasimində çıxış edən Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk Vətən uğrunda canından-qanından keçən Türk və Azərbaycan şəhidlərini yad edib, istiqlal naminə gedən mübarizələrdən bəhs edib, qazanılan zəfərlərin əbədi olmasını diləyib. Konsul Çanaqqala zəfərindən söz açaraq, bu tarixi hadisədən ilhamlanaraq "İstiqlal marşı"nı qələmə alan dahi şair Mehmet Akif Ərsoyu hörmət və sevgi ilə yada salıb. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, Çanaqqala döyüşü Osmanlı dövlətinin möhtəşəm qələbəsi kimi tarixə düşüb, Türk xalqının mübarizlik simvolu kimi əbədiləşib. Şəhər rəhbəri Çanaqqala zəfərinin Türkiyədə olduğu kimi, Azərbaycanda da böyük sevinc və qürurla qeyd edildiyini vurğulayıb. Bu hadisənin əsl qardaşlıq nümunəsi göstərərək, Anadolu torpaqlarında şəhid olmuş Azərbaycan oğullarının da xatirəsinə ehtiramın göstəricisi olduğunu qeyd edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Vətənin azadlığı uğrunda canından keçən bütün şəhidlərə Allahdan rəhmət diləyib. Tədbirdə iştirak edən qonaqlar Çanaqqala döyüşündən bəhs edərək bildiriblər ki, bu döyüş türk əsgərlərinin göstərdiyi mərdlik və cəsarətin rəmzidir. Qeyd olunub ki, Çanaqqala döyüşü Türkün zəfər dastanı olaraq tarixdə əbədi qalacaqdır. Gəncə Uşaq Evinin kiçik istedadları Mehmet Akif Ərsoyun müəllifi olduğu "İstiqlal marşı" şeirini səsləndiriblər.

Tədbirin sonunda Mehmet Akif Ərsoyun həyatından bəhs edən sənədli film, Çanaqqala döyüşü və Çanaqqala şəhidlərinə həsr edilən videoçarx nümayiş olunub.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 20 mart.- S. 4.**